# Seyid

# Şuşinski - 135

***Şərq musiqisinin incisi***



*(Daycest)*

**Bakı - 2024**

Azərbaycan xanəndəsi, Şuşa xanəndəlik məktəbinin nümayəndəsi Mir Möhsün Ağa Seyid İbrahim oğlu Şuşinski 12 aprel 1889-cu ildə indiki Füzuli rayonunun Horadiz kəndində anadan olmuşdur. Bəzi şəxslər tərəfindən atası Seyid İbrahimin elə məhz Horadizli olduğu iddia edilsə də, Firudin Şuşinski Mir Möhsün haqqında yazdığı bioqrafik "Seyid Şuşinski" adlı əsərində atasının Şuşalı olduğunu sübuta yetirmişdir. Belə ki, Seyid İbrahim 1879 və 1880-ci illərdə Qarabağda baş vermiş qıtlıq zamanı qardaşı Seyid Əli ilə birlikdə Şuşanı tərk edərək, Qarabağın varlı və böyük kəndlərindən biri olan Horadizdə məskən salmışdır. Qardaşı Seyid Əli isə Bərdə şəhərinə pənah aparmışdır. Seyid İbrahim Horadizə yerləşdikdən bir müddət sonra əttar dükanı açmış və 1884-cü ildə Məhparə adlı xanımla ailə həyatı qurmuşdur. Onun bu evlilikdən Seyid Zülfüqar, Seyid Miriş və Seyid Möhsün adlı üç oğlu dünyaya göz açmışdır. Seyid Möhsün hələ uşaq olarkən atası vəfat etmiş və o, xalası Məşədi Hürzad xanımın himayəsinə verilmişdir. Məşədi Hürzad Qarabağın qadın toylarında xanəndəlik edər və özü ilə birlikdə Seyid Möhsünü də toylara aparardı. Seyid Möhsün 1904-cü ildə xalası Məşədi Hürzad ilə Horadizdə toyda olarkən kənd camaatı toyda iştirak edən məşhur aşıq Aleksandan xahiş edirlər ki, onun ifasını dinləsin. Möhsünün səsinə valeh olan aşıq Aleksan onu öz dəstəsinə qəbul edir. Şuşada nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirlərinə yiyələnmək üçün əvvəlcə iki il Mir Möhsün Nəvvabın yanında oxumuşdur. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olmuşdur. Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırırdı. Seyid Şuşinski ifa üçün mürəkkəb muğam olan "Çahargah"ı xüsusilə böyük məharətlə oxuyardı, özü də həmişə onu "mayə"dən yox, "Mənsuriyyə"dən başlayardı, zildə böyük ustalıqla zəngulələr vuraraq, sonra "mayə"yə enərdi. Maraqlıdır ki, həyatının son illərində, yaşı artıq 74-ü ötmüş Seyid "Mənsuriyyə"ni eyni şövqlə oxuyurdu. Seyid Şuşinski yaradıcılığında Hafiz Şirazi, Məhəmməd Füzuli, Seyid Əzim Şirvaninin qəzəllərilə yanaşı, Hüseyn Cavidin və Mirzə Ələkbər Sabirin şeirlərinə də müraciət edirdi. Sabirin "Millət necə tarac olur-olsun, nə işim var" şeirini "Müxalif"də oxuyardı. Seyid Şuşinski siyasi-ictimai mövzuda şeir və qəzəl oxuyan, xalqı mübarizəyə çağıran ilk xanəndə olmuşdur. O, bir sıra mübariz ruhlu mahnılar da oxumuşdur: "Ayıl, ey millət", "Mən bir türkəm", "Millət istərsə" və s. Seyid Şuşinski Mirzə Cəlil, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. O, “Molla Nəsrəddin”in bir neçə nömrəsinin çıxmağına maddi yardım göstərmişdir. Seyid Şuşinski "Çahargah"dan başqa, "Mahur", "Nəva", "Məsnəvi", "Osmanı", "Arazbarı", "Heyratı" kimi muğamların gözəl ifaçısı idi. O, novator sənətkar olaraq, bir çox muğamları birləşdirib, onları yeni variantda oxumuşdur ("Rast-Humayun", "Qatar-Bayatı", "Şur-Şahnaz"). "Rast"da və "Kürdi-Şahnaz"da "Dilkəş"i ilk dəfə Seyid Şuşinski ifa etmişdir. Seyid Şuşinskinin görkəmli bəstəkarımız Fikrət Əmirovun ilk dəfə yaratdığı və dünyada şöhrət qazandığı "Şur" və "Kürdi-Ovşarı" simfonik muğamlarının yazılmasında məsləhətçi kimi böyük köməyi olmuşdur. Seyid Şuşinski 1956-cı ildə Azərbaycan SSR xalq artisti fəxri adına layiq görülmüşdür. O, 1965-ci ildə Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

Tanınmış muğam ifaçısı Seyid Şuşinskinin 135 illik yubileyi münasibətilə F. Köçərli adına Respublika Uşaq Kitabxanası sənətkar haqqında fondunda mövcud olan çap materiallarının tam mətnli biblioqrafik göstəricisini hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Tanınmış şəxslər Seyid Şuşinski haqqında

Qarabağ xanəndəlik məktəbinə mənsub qüdrətli sənətkar Seyid Şuşinski xalqımızın mənəvi dünyasının formalaşmasında müstəsna əhəmiyyət daşıyan qədim muğam ənənələrimizi layiqincə qoruyub yaşatmışdır. Geniş diapazonlu nadir, ecazkar səsə və yüksək səhnə mədəniyyətinə malik böyük muğam ustası təkrarolunmaz mükəmməl ifaçılıq nümunələri ilə Azərbaycanın musiqi xəzinəsini daha da zənginləşdirmişdir. Seyid Şuşinski müəllim kimi uzun illər ərzində istedadlı musiqiçilərin yetişdirilməsi sahəsində də təqdirəlayiq fəaliyyət göstərmişdir.

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

Görkəmli şəxsiyyətlər Seyid Şuşinski haqqında Seyid Şuşinskinin təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə məşhurdu. O, geniş diapazonlu sənətkar, şair qəlbli insan idi. O bütün muğamları istər pəsdə, istərsə də zildə çətinlik çəkmədən məharətlə oxumuşdur. Onun istər cavan və istərsə də qoca yaşlarında qramofon vallarına və maqnitofon lentlərinə oxuduğu muğam, təsnif və el nəğmələri Şərq musiqisi xəzinəsinə bəxş etdiyi zəngin incilərdir.

***Firidun Şuşinski,***

*musiqişünas*

Seyid Şərq musiqisinin incisidir.

***Cabbar Qaryağdıoğlu***,

*xanəndə*

Müəllimlər müəllimi Seyid, ruhun şad olsun!

***Tahir Abbaslı,***

*jurnalist*

Özünün böyük ustalığı sayəsində milli musiqi mədəniyyəti tarixində şərəfli yer tutmuş Seyid Şuşinskinin əziz xatirəsi daim onu sevənlərin qəlbində yaşayacaqdır.

***Rafiq Salmanov***,

*fotomüxbir*

Seyid Şuşinski xüsusi yaradıcılıq fəaliyyətinə malik böyük sənətkar idi. O, muğam ifaçılığı sənətinin yeni inkişaf mərhələsini səciyyələndirən güclü və zəngin ənənə yaratmışdır. Həmin klassik ənənə nəinki xanəndə-sazəndə fəaliyyətində, həm də müasir Azərbaycan professional musiqi yaradıcılığında dərin kök salmışdır. Belə ki, ustadın ölməz sənəti ən qiymətli milli mənbələrdir.

***Xanəli Quliyev,***

*musiqişünas*

## Kitablarda

Azərbaycan musiqi dünyası = Azerbaijan music world. - Bakı : Nurlar NPM, 2001. – S. 11.

**Hidayətqızı S**. Muğam qəsri. II kitab : Sarı sim : Yüz muğam bilicisindən müxtəlif illərin müsahibəsi 2000-2016. - Bakı : Apostrof, 2016. – S. 112-120.

**Şuşinski F.** Azərbaycanın musiqi xəzinəsi. - Bakı : Vətənoğlu NP MMC, 2015. – S. 499-534.

## Dövrü mətbuatda

**Abbaslı T.** Çeşmə Səs, seçmə Avaz : muğam ifaçısı Seyid Şuşinski haqqında // Mədəniyyət. - 2015. - 10 aprel. - № 27. - S. 15.

**Abbaslı T**. Səs... : Seyid Şuşinski haqqında // Mədəniyyət. - 2010. - 9 aprel. - N 21. - S. 11.

**Abbaslı T.** Səs... Dünyaya səs salan səs // Mədəniyyət. – 2010. – 9 aprel.

**Bayramov A.** Seyid Şuşinski və Tiflis Azərbaycan teatrı // Mədəniyyət. - 2012. - 27 iyul. - № 54. - S. 13.

**Çəmənli M**. Muğam dünyasının bələdçisi // 525-ci qəzet. - 2023. - 8 sentyabr. - № 160. - S. 14.

**Çəmənli M**. Muğam islahatçısı : Seyid Şuşinski - 130 // 525-ci qəzet. - 2019. - 13 aprel. - № 62. - S. 18.

**Əhmədalılar T**. Bir səs hadisəsi : böyük muğamın zirvə məqamında qərarlaşan Seyid Şuşinski // Mədəniyyət. - 2013. - 12 aprel. - № 26. - S. 12.

**Əsədullayev A**. Peşəkarlıq - bu, muğam ifaçılığının əsas şərtidir // Mədəniyyət.az. - 2018. - № (322). - S. 34-37.

**Fərəcov S**. Seyid Şuşinskidən sənət xeyir-duası almışdı... : İslam Rzayev - 90 // Mədəniyyət : qəzet. - 2024. - 26 yanvar. - № 7. - S. 6.

**İbişova R**. Ustad sənətkar : Seyid Şuşinski haqqında // Mədəniyyət. - 2009. - 24 aprel. - S. 6.

**İbrahimov M.** Xalq musiqisinin çırpınan ürəyi : Seyid Şuşinski haqqında // Azərbaycan. - 2014. - 17 oktyabr. - № 225. - S. 11.

**Kərimov Y.** Qədr Ağacı... : Seyid Şuşinskinin məzarı önündə düşüncələr // Azərbaycan . - 2006. - 30 noyabr. - S.8.

**Məhəmmədoğlu F**. Böyük xanəndə // Azərbaycan gəncləri. – 1989. – 17 iyun. – S. 4.

Muğam sənətinin ustadı Seyid Şuşinskinin 130 illik yubileyi qeyd ediləcək // Mədəniyyət. - 2019. - 6 fevral. - № 10. - S. 1.

Muğamatın Seyidi // Mədəniyyət : qəzet. - 2023. - 1 noyabr. - № 81. - S. 1.

**Nərimanoğlu M**. Ustad xanəndə : Cabbar Qaryağdıoğlu xalq musiqisinin düşünən beyni, Seyid Şuşinski isə çırpınan ürəyi olub // Azərbaycan : qəzet. - 2019. - 9 avqust. - № 173. - S. 5.

**Qaraca B.** Dünya şöhrətli xanəndə : Seyid Şuşinskinin - Şuşalı Seyidin 125 yaşı tamam olur // Azərbaycan. - 2014. - 12 aprel. - № 73. - S. 6.

**Quliyev X**. Muğam islahatçısı // Ədəbiyyat və incəsənət. – 1979. – 20 aprel.

**Salmanov R.** Şərq musiqi dünyasının incisi Seyid Şuşinskinin xatirə gecəsi // Xalq qəzeti. – 2004. – 13 oktyabr.

Seyid Şuşinskinin 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (4 fevral 2019-cu il) // Respublika. - 2019. - 5 fevral. - № 28. - S. 1.

**Şuşalı F.** Qüdrətli sənətkar, qayğıkeş insan // Bakı. – 1989. – 16 iyun.

**Şuşinski F**. Şərq musiqisinin incisi // Ədəbiyyat və incəsənət. – 1979. – 24 avqust.

Xanəndələrin seyidi // Şəkər villası. – 2003. – 04-15 oktyabr.

**Xəlilzadə F.** Bir Şahmalı var idi // Azərbaycan. – 2010. – 2 may.

***Tərtib etdi:*** ***Əkbərova Aysel***